**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

# SƏRƏNCAM

**22 oktyabr 2026-cı il** **10-1/3-3-39/2026**

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2026-cı il 16 sentyabr tarixində Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına ünvanlanmış məktubundan irəli gələn vəzifələrin icrasına dair Yol Xəritəsinin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 16 sentyabr tarixində Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına ünvanlanmış məktubundan irəli gələn vəzifələrin icrasını təmin etmək, audit sahəsində rəqəmsal transformasiyanı sürətləndirmək, süni intellekt və innovativ texnologiyaların tətbiqini genişləndirmək, beynəlxalq əməkdaşlığı və peşəkar inkişafı gücləndirmək, auditə ictimai etimadın artırılmasına, auditor fəaliyyətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsinə və Auditorlar Palatasının institusional potensialının möhkəmləndirilməsinə yönəlmiş tədbirlərin sistemli və əlaqələndirilmiş şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2026-cı il 16 sentyabr tarixində Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına ünvanlanmış məktubundan irəli gələn vəzifələrin icrasına dair Yol Xəritəsi təsdiq edilsin (əlavə olunur).

2. Yol Xəritəsində müəyyən edilmiş məsul icraçılara tapşırılsın ki:

2.1. müvafiq tədbirlərin müəyyən edilmiş müddətlərdə, keyfiyyətlə və Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun olaraq icrasını təmin etsinlər, habelə

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/fr5ANvIHljaB0Lu%2FC2xS3LGP2UWNVX2kBjBJS3xCHUU%3D

icra prosesində Palatanın aidiyyəti struktur bölmələri, Palatanın Şurası yanında komitələr və komissiya ilə zəruri əməkdaşlığın təmin olunmasını təşkil etsinlər;

2.2. Yol Xəritəsində nəzərdə tutulmuş tədbirlərin icrası zamanı rəqəmsal həllərin tətbiqi, beynəlxalq təcrübənin öyrənilməsi və istifadəsi, peşəkar bacarıqların inkişaf etdirilməsi, eləcə də audit proseslərində şəffaflığın, operativliyin və ictimai etimadın artırılması ilə bağlı məsələlərə xüsusi diqqət yetirilsin.

3. Palatanın daxili auditoruna (Ş.Əsgərova) tapşırılsın ki, Yol Xəritəsində nəzərdə tutulmuş tədbirlərin icra vəziyyətinin müəyyən edilmiş qaydada monitorinqini həyata keçirsin, icra nəticələrini ümumiləşdirsin və müvafiq məlumatı mütəmadi olaraq Palatanın rəhbərliyinə təqdim etsin.

4. Bu Sərəncamın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

5. Bu Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/fr5ANvlHljaB0Lu%2FC2xS3LGP2UWNVX2kBjBJS3xCHUU%3D